# 2018-ci ilin xronikası

**9 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorini qəbul etmişdir. Görüşdə Azərbaycan və Yaponiya gömrük xidmətləri arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin səviyyəsindən, xüsusilə Ümumdünya Gömrük Təşkilatı çərçivəsində əlaqələrdən, ölkəmizdə biznes mühitinin, sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması, beynəlxalq ticarətin asanlaşdırılması və sürətləndirilməsi, eləcə də ölkə iqtisadiyyatının formalaşmasında mühüm rolu olan gömrük işinin daha səmərəli və şəffaf şəkildə qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə söhbət açılmışdır.

**17 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyev ilə görüşmüşdür. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb, o cümlədən gömrük sistemində informasiya-kommunikasiya texnologiyaları, kadr potensialının gücləndirilməsi, gömrük hüquqpozmalarına qarşı mübarizə, kinoloji xidmət və s. sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

**19 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Azərbaycanda səfərdə olan Əfqanıstan İslam Respublikası maliyyə nazirinin müavini Nəcibullah Vərdəkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan-Əfqanıstan əlaqələrinin hazırkı durumu, mövcud imkanlar və gələcək perspektivlər barəsində ətraflı fikir mübadiləsi aparılıb.



**23 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin "Qış məktəbi" təqaüd proqramı üzrə növbəti təlimi başlayıb. Tədbir Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin (INCU) Bakı Regional Ofisi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə baş tutub. Təlimdə Rusiya Federasiyası Şimal-Qərb İdarəçilik İnstitutunun, Çin Xalq Respublikası Pekin Beynəlxalq Biznes və İqtisadiyyat Universitetinin, eləcə də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının, Azərbaycan Dövlət İqtisad Universitetinin və Bakı Ali Neft Məktəbinin tələbələri iştirak ediblər.



**29 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmakı qəbul edib. Görüşdə FAO-nun "Azərbaycanda fitosanitar nəzarətin və diaqnostik xidmətlərin gücləndirilməsi" layihəsi çərçivəsində alınmış müfəttiş dəstləri təqdim olunub.

**1 fevral tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev DHL şirkətinin məhsul və əməliyyatlar üzrə vitse-prezidenti Zoltan Reszekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdən sonra qonaqlar Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsində gömrük xidmətinin müasirləşdirilməsilə bağlı layihələrlə tanış olublar.

**2 fevral tarixində** "Hyatt Regency" mehmanxanasında Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) növbəti aylıq toplantısı keçirilib. Toplantıda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri və Palatanın üzvləri iştirak edib. Görüşdə Azərbaycan Gömrük Xidmətinin beynəlxalq əməkdaşlıq əlaqələrinə də toxunulub, həmçinin ötən il Azərbaycanın ev sahibliyi etdiyi gömrüklə əlaqəli bir sıra regional və beynəlxalq tədbirlər barədə Palata üzvləri məlumatlandırılıb.

**5 fevral tarixində** Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə həyata keçirilən "Ukrayna və Belarus Respublikası sərhədindəki Novaya Quta-Novıye Yarıloviçi sərhəd keçid məntəqəsinin avtomatlaşdırılmış intellektual videomüşahidə sisteminin təşkil edilməsi" layihəsi çərçivəsində adıçəkilən ölkələrin gömrük xidmətlərinin nümayəndə heyətləri bu sahədə Azərbaycan gömrüyünün qabaqcıl təcrübəsini öyrənmək məqsədilə ölkəmizə səfər edib. Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən təşkil edilən səfər çərçivəsində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı Şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində görüş keçirilib.

**8-10 fevral tarixlərində** Çin Xalq Respublikasının Pekin şəhərində Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə "Birinci Qlobal Sərhədlərarası Elektron Ticarət" üzrə Beynəlxalq Konfrans keçirilib. 2000 nümayəndənin qatıldığı konfransda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev iştirak edib.




**13-14 fevral tarixlərində** DGK Xarici Əlaqələr İdarəsinin rəisi Dilavər Fərzəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 2-4 may tarixlərində Dövlət Gömrük Komitəsinin (DGK) təşkilatçılığı ilə Bakı şəhərində keçiriləcək Gömrük və Logistika üzrə Səlahiyyətli İqtisadi Operatorların Beynəlxalq Assosasiyasının illik Assambleya və Konfransının təşkilati məsələlərinin həll edilməsi məqsədilə İspaniya Krallığının Barselona şəhərində işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində Barselona Azad İqtisadi Zona Konsorsiumunda qurumun icraçı prezidenti Jordi Cornetin rəhbərlik etdiyi nümayəndə heyəti ilə, İspaniya Krallığında fəaliyyət göstərən sahibkarları və iri Kataloniya sənayesini təmsil edən təşkilat - "Foment del Treball Nacional"-ın beynəlxalq komissiyasının prezidenti Joan Canals ilə ikitərəfli görüşlər keçirilmişdir. Səfər çərçivəsində Gömrük və Logistika üzrə Səlahiyyətli İqtisadi Operatorların Beynəlxalq Assosiasiyasının prezidentinin və səlahiyyətli nümayəndələrinin iştirakı iləBakıda keçiriləcək tədbirlərin təşkilati məsələləri, tərəflərin öhdəlikləri, Assambleya və Konfransın uğurlu təşkili üçün müvafiq tədbirlər ətraflı müzakirə edilmişdir.



**14 fevral tarixində** Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Azərbaycan və Gürcüstan arasında "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində "Gömrük sərhəd buraxılış məntəqələrində baytarlıq, fitosanitar və sanitariya nəzarəti qaydaları" üzrə milli seminar keçirilib.

**19 fevral tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov ölkəmizdə səfərdə olan Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzinin direktoru Pustovitov Qriqoriy Borisoviçlə görüşüb.

**23 fevral tarixlərində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Onno Kerversi qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb, o cümlədən, gömrük sistemində informasiya-kommunikasiya

texnologiyaları, kadr potensialının gücləndirilməsi, gömrük hüquqpozmalarına qarşı mübarizə və s. sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

**14 mart tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) prezidenti Nuran Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

**15 mart tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev ABŞ Dövlət Departamentinin Beynəlxalq Təhlükəsizlik və İxraca Nəzarət sahəsində Əməkdaşlıq Bürosunun xarici əlaqələr üzrə zabiti, xanım Karen Çeysonu qəbul edib.

**16 mart tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev İsrail Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə, son zamanlar Azərbaycan gömrük sərhədindən keçərkən qanunvericiliyin tələblərini pozan bir neçə İsrail vətəndaşı ilə bağlı səfirə ətraflı məlumat verilib, bu barədə fikir mübadiləsi aparılıb.



**29 mart tarixində** Xaçmaz Gömrük İdarəsinin Rusiya-Azərbaycan sərhədində yerləşən "Samur" sərhəd-keçid məntəqəsində Azərbaycan Dövlət Gömrük Komitəsinin (DGK) Xaçmaz Gömrük İdarəsi və Rusiyanın Federal Gömrük Xidməti Şimali Qafqaz Gömrük İdarəsinin əməkdaşları arasında növbəti işçi görüş keçirilib. Xaçmaz Gömrük İdarəsinin rəisi Azər Məmmədov və Dağıstan Gömrük İdarəsinin rəisi Ruslan Yəhyayevin rəhbərlik etdiyi nümayəndə heyətlərinin qatıldığı görüşdə qarşılıqlı əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub,

**9 aprel tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Yaponiyanın Maliyyə Nazirliyi Gömrük və Tarif Bürosunun baş direktorunun müavini Sumiya Şibasakinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

**12 aprel tarixində** Bakıda, "Holiday İnn" mehmanxanasında Avropa İttifaqının Texniki Yardım və İnformasiya Mübadiləsi Proqramı (TAIEX) çərçivəsində "Ümumdünya Poçt İttifaqı aktları ilə müşayiət olunan beynəlxalq poçt göndərişləri və daşıyıcı şirkətlər tərəfindən daşınan sürətli poçt göndərişləri üzərində gömrük nəzarəti" mövzusunda seminar keçirilib.

**12-14 aprel tarixlərində** Rusiya Federasiyasının Soçi şəhərində, Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə gömrük xidməti rəhbərlərinin illik iclası keçirilib. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsini Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev və Xarici Əlaqələr İdarəsinin rəisi, gömrük xidməti polkovniki Dilavər Fərzəliyev təmsil

edib. İclasın sonunda Azərbaycan Respublikasının ÜGT-nin Maliyyə Komitəsində üzvlük müddətinin növbəti ilə qədər uzadılması qərara alınıb.



2-4 may tarixlərində Bakı şəhərində Gömrük və Logistika üzrə Səlahiyyətli İqtisadi Operatorlar Beynəlxalq Assosiasiyasının illik Assambleyası və Konfransı keçirilib. "Hilton Baku" mehmanxanasında keçirilən tədbiri sözügedən beynəlxalq assosiasiya və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi birgə təşkil edib.




2-4 may tarixlərində Bakıda keçirilən Səlahiyyətli İqtisadi Operatorlar Beynəlxalq Assosiasiyasının Assambleyası və Konfransı çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ümumdünya Gömrük Təşkilatı baş katibinin müavini Rikardo Trevinonu qəbul edib.



**3 may tarixində** Bakıda keçirilən Səlahiyyətli İqtisadi Operatorlar Beynəlxalq Assosiasiyasının Assambleyası və Konfransı çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Uruqvay Gömrük İdarəsinin baş direktoru Enrike Kanonla görüşüb.

**21 may tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Avropa İttifaqının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan Gömrük Xidməti və Avropa İttifaqı rasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.



**22 may tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin rəhbəri Roger Herman və ofisin əməkdaşı Eser Çengellə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərbarədə fikir mübadiləsi aparılıb.

**29-31 may tarixində** Bakı şəhərində, "Holiday Inn" mehmanxanasında idxal zamanı bitki və bitkiçilik məhsullarının yoxlanılması üzrə təlim keçirilib. "Azərbaycanda fitosanitar nəzarətin və diaqnostika xidmətlərinin gücləndirilməsi" layihəsi çərçivəsində təşkil olunan təlim Dövlət Fitosanitar Nəzarəti Xidməti və Dövlət Gömrük Komitəsinin müfəttişləri üçün nəzərdə tutulub.

**31 may tarixində** Rusiya Federasiyasının Dərbənd şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsi və Rusiyanın Federal Gömrük Xidməti Dağıstan Gömrük İdarəsinin əməkdaşları arasında növbəti işçi görüş keçirilib. Dövlət Gömrük Komitəsi Xarici Əlaqələr İdarəsinin rəisi Dilavər Fərzəliyev, Xaçmaz Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov və Dağıstan Gömrük İdarəsinin rəisi Ruslan Yəhyayevin rəhbərlik etdiyi nümayəndə heyətlərinin qatıldığı görüşdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin və "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları da iştirak edib. Görüşün sonunda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı sərhəd-keçid məntəqələrində buraxılışın müntəzəmliyinin təmin edilməsinə dair işçi protokolu imzalanıb.

**1 İyun tarxində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) icraçı direktoru Natəvan Məmmədovanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

**6 iyun tarixində** Peru Respublikasının paytaxtı Lima şəhərində 75 ölkəni təmsil edən 500-dən artıq nümayəndənin iştirakı ilə Ümumdünya Gömrük Təşkilatının (ÜGT) növbəti 2018-ci il İnformasiya Texnologiyaları Konfransı və Sərgisi keçirilmişdir. Peru Gömrük və Vergilər Administrasiyasının ev sahibliyi etdiyi sayca 17-ci olan bu tədbir Koreya

Gömrük Xidmətinin dəstəyi ilə təşkil edilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayev və Xarici Əlaqələr İdarəsinin rəisi, gömrük xidməti polkovniki Dilavər Fərzəliyev təmsil ediblər.

**12 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadəni qəbul edib**.**

**14 iyun tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmakı qəbul edib.

**20 iyun tarixində** Qazaxıstan Respublikasının Astana şəhərində, iyunun 15-də Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 67-ci iclası keçirilib.
İclasda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

**28 iyun tarixində** Ankara şəhərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Gömrük və Ticarət Nazirliyi arasında Gömrük Sahəsində Birgə Komitənin ikinci iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Naxçıvan MR Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov və digərləri, Türkiyə Gömrük və Ticarət Nazirliyinin müşaviri Cenap Aşcının rəhbərliyi ilə nümayəndə heyəti iştirak ediblər.



**28 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərliyi ilə nümayəndə heyəti Ümumdünya Gömrük Təşkilatı Gömrük Əməkdaşlıq Şurasının 132-ci sessiyasında iştirak etmək üçün Brüssel şəhərində səfərdə olmuşdur.



**29 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ümumdünya Gömrük Təşkilatı Gömrük Əməkdaşlıq Şurasının növbəti sessiyasında iştirak etmək üçün Brüssel şəhərində səfərdə olmuşdur. Səfər çərçivəsində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə direktoru Ernani Checcucci ilə görüş keçirilmişdir.

**30 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Brüsseldə ÜGT Gömrük Əməkdaşlıq Şurasının sessiyası çərçivəsində Koreya Respublikası Gömrük Xidmətinin rəhbəri Kim Yung-Moon ilə görüş keçirmişdir. Görüşdə "Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.



**30 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatı Gömrük Əməkdaşlıq Şurasının sessiyası çərçivəsində Yaponiyanın Maliyyə Nazirliyi Gömrük və Tarif Bürosunun baş direktoru Atsuşi Lizuka ilə görüşmüşdür.

**30 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kuniyo Mikuriya ilə görüşmüşdür.



**30 iyun tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatı Gömrük Əməkdaşlıq Şurasının sessiyası çərçivəsində Seneqal Respublikası Baş Gömrük İdarəsinin baş direktoru Oumar Diallo ilə görüşmüşdür.

**9 iyul tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumannın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

**10 iyul tarixində**
Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev "Caspian European Club"un Baş İcraçı direktoru Telman Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə iki qurumun üzvlərindən ibarət işçi qrupun yaradılması qərara alınıb.

**16 iyul tarixində** Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndə heyətləri arasında işçi görüş keçirilib. Nümayəndə heyətləri İranın Culfa və Azərbaycanın Naxçıvan şəhərində bir araya gəliblər. Azərbaycanı Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev və Naxçıvan Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov, İranı isə Maliyyə və iqtisadiyyat nazirinin müavini, Gömrük Administrasiyasının prezidenti Fərud Əsgəri və digər rəsmi şəxslər təmsil edib. Görüşün sonunda "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Gömrük İdarəsi arasında 2018-2019-cu illər üçün gömrük hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsi üzrə Tədbirlər Planı" və Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndə heyətləri arasında işçi görüşün Protokolu imzalanıb.

**16 iyul tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev ilə Rusiya Gömrük Akademiyasının rəisi, professor Vladimir Mantusov arasında görüş keçirilib.

**19 iyul tarixində** Avropa İttifaqı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə icra etdiyi "Ümumi Tranzit Proseduru Haqqında Konvensiya və Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Haqqında Konvensiyaya qoşulmaq üçün Dövlət Gömrük Komitəsinə dəstək" layihəsinin yekun qiymətləndirilməsi ilə bağlı seminar keçirilib. Dövlət Gömrük Komitəsində keçirilən seminarın açılış mərasimində Komitənin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas, Dövlət Gömrük Komitəsinin sədr müavinləri, Komitənin əməkdaşları və Avropa İttifaqının ekspertləri iştirak ediblər.

**10 avqust tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

**5-6 sentyabr tarixlərində** Bakı şəhərindəki "Park Inn" otelində "Elektronlaşma vasitəsilə beynəlxalq ticarət və nəqliyyatın asanlaşdırılması" mövzusunda seminar keçirilib. Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) təşkil etdiyi tədbirdə bu qurumun üzvü olan milli zəmanət birlikləri, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE), Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), eləcə də Azərbaycan, Türkiyə, İran, Gürcüstan, Ukrayna, Çin, Özbəkistan, Tacikistan, Qazaxıstan və Qırğızıstan gömrük orqanlarının nümayəndələri iştirak edib.

**6 sentyabr tarixində** Xaçmaz şəhərində Azərbaycan Respublikası və Rusiya Federasiyasının dövlət sərhədindəki gömrük buraxılış məntəqələrində yaranan problemlərin operativ həlli və müəyyən buraxılış məntəqələrinin işinin effektivliyinin artırılması üzrə məsələlərin müzakirəsi məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Rusiya Federasiyası Federal Gömrük Xidmətinin nümayəndələri arasında işçi görüşü keçirilib.

**17 sentyabr tarixində** Qırğız Respublikasının Çolpon-Ata şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri Başçıları Komitəsinin 18-ci iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leyteantı Əsgər Abdullayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

**19 sentyabr tarixində** Dövlət Gömrük Komitəsində Amerika Birləşmiş Ştatları Narkotiklərlə Mübarizə Administrasiyasının nümayəndələri ilə görüş keçirilib. 2019-cu ilin 16-18 aprel tarixlərində Azərbaycan Respublikasında keçiriləcək "Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans"la bağlı müzakirələrin aparıldığı görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, Nazirlər Kabinetinin, Daxili İşlər, Xarici İşlər, Maliyyə nazirliklərinin, Dövlət Təhlükəsizlik və Dövlət Sərhəd xidmətlərinin nümayəndələri iştirak ediblər.

**19 sentyabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Latviyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuris Maklakovsu qəbul edib. Görüşdə qarşılıqlı əlaqələrin gələcək perspektivləri barəsində ətraflı fikir mübadiləsi aparılıb.

**20-22 sentyabr tarixlərində** Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzində "MDB iştirakçı dövlətlərinin gömrük xidmətlərinin kinoloji strukturlarının çoxnövçülükdə birincilik üzrə 8-ci yarışları" keçirilib. Yarışlarda Azərbaycanla yanaşı, Rusiya Federasiyası, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Belarus gömrük xidmətlərinin komandaları da iştirak ediblər.

**25 sentyabr tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Filip Ştalderi qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**26-27 sentyabr tarixlərində** Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru İqbal Babayevin rəhbərliyi ilə nümayəndə heyəti Rusiya Gömrük Akademiyasının 25 illik yubiley tədbirlərində iştirak etmək üçün Moskva şəhərinə səfər edib.

**2 oktyabr tarixində** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT-nin birlikdə həyata keçirdiyi "Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram"ın icra vəziyyətinin öyrənilməsi məqsədilə

görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov və həmin idarənin əməkdaşları, "Konteyner daşımalarına nəzarət üzrə Qlobal Proqram"ın Qaradəniz seqmenti üzrə koordinatoru Naida Şamilova, "Ernst&Young" şirkətininin nümayəndəsi Laurenco Plane De Carreto iştirak ediblər.

**2 oktyabr tarixində** Azərbaycan Respublikasının Astara gömrük-sərhəd keçid məntəqəsində Azərbaycan Respublikası və İran İslam Respublikası gömrük xidmətlərinin nümayəndələri arasında növbəti görüş olub. Tədbir Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Mərkəzi Gömrük İdarəsi arasında imzalanmış Anlaşma Memorandumuna əsasən baş tutub. Azərbaycan tərəfini Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postunun rəisi Hüseyn Məsumovun rəhbərlik etdiyi nümayəndə heyəti, İran İslam Respublikasını isə bu ölkənin Astara Gömrük İdarəsinin rəisi Rəsul Omidinin rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil edib.

**4 oktyabr tarixində** Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 68-ci iclası keçirilib.
İclasa Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Rusiya, Tacikistan, Özbəkistan, Ermənistan gömrük xidmətlərinin, həmçinin Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin nümayəndələri qatılıb. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev və Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev təmsil ediblər.

**5 oktyabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**8 oktyabr tarixində** İran İslam Respublikasının Biləsuvar gömrük-keçid məntəqəsində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında görüş olub. Tanışlıq xarakterli görüş İran tərəfinin dəvəti əsasında baş tutub. Azərbaycan Respublikasını Cənub Ərazi Baş Gömrük İdarəsi "Biləsuvar" gömrük postunun rəisi Ceyhun İbrahimovun, İran İslam Respublikasını isə bu ölkənin "Biləsuvar" gömrük-keçid məntəqəsinin rəhbəri Davər Arəngin rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil edib.

**11 oktyabr tarixində** İran İslam Respublikasının Astara Gömrük İdarəsində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında daha bir görüş keçirilib. Azərbaycan tərəfini Dövlət Gömrük Komitəsi Gömrük-Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsinin rəisi Şahin Ələsgərov, İran İslam Respublikasını isə bu ölkənin Astara Gömrük İdarəsinin rəisi Rəsul Omidinin rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil edib.

**16-18 oktyabr tarixlərində** Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ÜGT-nin Avropa regionu üzrə tədris mərkəzləri rəhbərlərinin 9-cu iclası keçirilib. Tədbirin açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru İqbal Babayev, ÜGT-nin əməkdaşları, Rusiya, Qazaxıstan, Qırğızıstan və Macarıstanda yerləşən regional tədris mərkəzlərinin nümayəndələri iştirak edib.

**18 oktyabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradzeni qəbul edib.

**23 oktyabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Meksikanın Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini Floresi qəbul edib.




**24 oktyabr tarixində** Dövlət Gömrük Komitəsində Azərbaycanda fəaliyyət göstərən Çin Xalq Respublikası şirkətlərinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Komitənin məsul vəzifəli şəxsləri, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin ticarət-iqtisadi məsələlər üzrə müşaviri Van Çunqan və bu ölkədən olan iş adamları iştirak ediblər.

**24-25 oktyabr tarixlərində** Rusiya Federasiyasının Moskva şəhərində Rusiya Gömrük Xidmətinin yaradılmasının 27-ci ildönümü münasibətilə Beynəlxalq Gömrük Forumu və "Gömrük Xidməti" mövzusunda ixtisaslaşdırılmış sərgi keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları iştirak ediblər.




**oktyabr tarixində** Hyatt Konfrans Mərkəzində Dövlət Gömrük Komitəsi rəhbərliyinin Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüşü keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, komitə sədrinin müavinləri və komitənin müvafiq qurumlarının əməkdaşları, Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, palatada təmsil olunan iş adamları, ölkəmizdəki diplomatik nümayəndəliklərin əməkdaşları iştirak ediblər.

**2 noyabr tarixində** Tailand Krallığının paytaxtı Banqkok şəhərində "CAREC ölkələrində Ümumdünya Ticarət Təşkilatının Ticarətin Asanlaşdırılması Sazişinin tətbiq edilməsi

üzrə yol xəritəsi" mövzusunda seminar və Ümumdünya Ticarət Təşkilatının Ticarətin Asanlaşdırılması Sazişinin tətbiq edilməsinin sürətləndirilməsinə dair subregional forum keçirilib. Hər iki tədbir Asiya İnkişaf Bankı, CAREC (Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq) Proqramı və CAREC İnstitutunun birgə təşkilatçılığı ilə baş tutub. Seminar və forumda Azərbaycan Respublikasının nümayəndə heyəti tərkibində Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi, gömrük xidməti polkovniki Səməd Qaralov iştirak edib.

**2-5 noyabr tarixlərində** Dövlət Gömrük Komitəsində idxal-ixrac qaydaları üzrə beynəlxalq ekspert Ringolds Arnitislə görüş keçirilib. Görüşdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin həyata keçirdiyi "Azərbaycanda Fitosanitar Nəzarətin və Diaqnostik Xidmətlərin Gücləndirilməsi" layihəsi çərçivəsində 6-8 noyabr tarixlərində keçiriləcək "Bitki və bitkiçilik məhsullarının göndərilməsinin ixrac sertifikatı" üzrə təlimin gündəliyində duran məsələlər, idxal-ixrac əməliyyatları üzrə mövcud vəziyyət və gələcək perspektivlər müzakirə edilib.

**6 noyabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Onno Kerversi qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparılıb.



**7-8 noyabr tarixlərində** Brüsseldə, Ümumdünya Gömrük Təşkilatının baş qərargahında bu qurumun Daimi Texniki Komitəsinin (DTK) 221/222-ci iclasları keçirilib. Tədbirdə ölkəmizi Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir.

**23 noyabr tarixində** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində GUAM Ticarət və Nəqletməyə Yardım Layihəsi üzrə Rəhbəredici Komitənin 29-cu iclası keçirilib.
Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev, DGK Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidməti rəisinin müavini Vaxtanq Laşkaradze, Ukrayna Gömrük Xidməti Xarici Əlaqələr Departamentinin rəisi Oleq Semyenenko, Moldova Gömrük Xidməti Xarici Əlaqələr Departamentinin rəhbəri Dmitriy Volovey və GUAM katibliyinin proqramlarının əlaqələndiricisi Səbuhi Temirov iştirak ediblər.






**28 noyabr tarixində** İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadiyyat və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 34-cü sessiyasının nazirlər toplantısı keçirilmişdir. Sessiyada ölkəmizi Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərlik etdiyi nüemayəndə heyəti təsil etmişdir. Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Səudiyyə Ərəbistanının nümayəndə heyəti arasında görüş keçirilib.

**5 dekabr tarixində** Dövlət Gömrük Komitəsində Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

**6 dekabr tarixində** "Boulevard" mehmanxanasında Caspian European Club və Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə biznes-forum keçirilib. Forumda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Komitə sədrinin müavinləri, aidiyyəti qurumların rəhbərləri, iş adamları və ölkəmizdəki diplomatik korpusların nümayəndələri iştirak ediblər.



**7 dekabr tarixində** Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Beynəlxalq Yük Daşıması Kitabçası tətbiq edilməklə Beynəlxalq Yük Daşımaları haqqında Gömrük Konvensiyası (BYD Konvensiyası) ilə tənzimlənən prosedurlar çərçivəsində həyata keçirilən daşımalar zamanı BYD ilkin məlumat mübadiləsi sisteminin - TIR-EPD sisteminin tətbiqinə dair seminar keçirilib. Seminarda Dövlət Gömrük Komitəsinin rəsmiləri ilə yanaşı, daşıyıcı şirkətlərin təmsilçiləri də iştirak ediblər.

**10 dekabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Ranani qəbul edib.



**11 dekabr tarixində** Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsində Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Beynəlxalq Miqrasiya Təşkilatının eksperti Alina Braşoveanu, layihə məmuru Mariya Nikolovska və digərləri iştirak edib.

**11 dekabr tarixində** Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində BYD Konvensiyası ilə tənzimlənən prosedurlar çərçivəsində həyata keçirilən daşımalar zamanı BYD ilkin məlumat mübadiləsi sisteminin - TIR-EPD sisteminin tətbiqinə dair seminar keçirilib. Seminarda Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinin əməkdaşları iştirak edib.

**11 dekabr tarixində** "Hyatt Regency Baku" otelində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Azərbaycan Respublikasının gömrük reyestrinə daxil edilmiş əqli mülkiyyət hüquqlarının obyektləri olan malların xüsusiyyətləri" adlı seminar keçirilib. "Beierdorf Akiengesellschaft" Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən seminarda DGK Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi, gömrük xidməti polkovniki Səməd Qaralov, "Beierdorf Akiengesellschaft" şirkətinin intellektual mülkiyyətin qorunması üzrə regional meneceri Daniel Federkov, "Unilever" şirkətinin intellektual mülkiyyətin qorunması üzrə regional meneceri Anna Sidorova, "Dentons" şirkətinin Bakı İdarəsinin müşaviri Sona Tağıyeva və DGK-nın digər əməkdaşları da iştirak ediblər.

**14 dekabr tarixində** Rusiya Federasiyasının Dərbənd şəhərində Azərbaycan və Rusiya gömrük xidmətlərinin nümayəndə heyətləri arasında işçi görüş keçirilib. Azərbaycan nümayəndə heyətinə Dövlət Gömrük Komitəsinin Şimal Ərazi Baş Gömrük İdarəsinin rəisi Pərviz Rəhimov, Rusiya nümayəndə heyətinə Federal Gömrük Xidmətinin Dağıstan Gömrük İdarəsi rəisinin səlahiyyətlərini icra edən Hacıramazan İslamov rəhbərlik edib.

**17 dekabr tarixində** Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar gömrük postunda Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında görüş keçirilib. Cənub Ərazi Baş Gömrük İdarəsi Biləsuvar gömrük postunun rəisi Ceyhun İbrahimovun, İran İslam Respublikası Biləsuvar gömrük-keçid məntəqəsinin rəisi Ramin Zəhirinin rəhbərliyi ilə nümayəndə heyətlərinin iştirak etdiyi görüşdə iki ölkə arasında iqtisadi münasibətlərin, ticarət dövriyyəsinin artmasına paralel olaraq beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi, eləcə də nəqliyyat vasitələrinin, şəxslərin gömrük sərhədindən təhlükəsiz və maneəsiz keçidinin təmin edilməsi, qarşılıqlı məlumat mübadiləsinin gücləndirilməsinə dair məsələlər müzakirə olunub.

**17-18 dekabr tarixlərində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti İsraildə işgüzar səfərdə olub. İsrail Gömrük Xidmətinin rəhbəri Avraham Ben Ardete və digər rəsmilərlə ilə görüş keçirilmiş, İordaniya Haşimilər Krallığı ilə sərhəddə yerləşən "Allenby" gömrük-buraxılış məntəqəsində gömrük orqanlarının iş prinsipi ilə yaxından tanış olunmuşdur.



**18 dekabr tarixində** Dövlət Gömrük Komitəsinin Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsində "Dubai Trade"in icraçı direktoru Mahmud Əl Bastaki ilə görüş keçirilib. Görüşdə informasiya texnologiyalarının gömrük işinin səmərəli şəkildə həyata keçirilməsində, beynəlxalq ticarətin sürətli və asan şəkildə reallaşdırılmasındakı rolu

barədə müzakirələr aparılıb, bu sahədə qarşılıqlı təcrübə və məlumat mübadiləsinin ümumi işə fayda verəcəyinə əminlik ifadə edilib.

**19 dekabr tarixində** "Pullman Baku" mehmanxanasında "Azərbaycanda Fitosanitar Nəzarətin və Diaqnostik Xidmətlərin Gücləndirilməsi" layihəsi çərçivəsində bağlanış seminarı keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti, Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları və sahibkarlar da iştirak ediblər.

**19 dekabr tarixində** Dövlət Gömrük Komitəsində 2019-cu il aprelin 16-18 tarixlərində, Bakı şəhərində keçiriləcək Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransa hazırlıqla bağlı iclas keçirilib. İclasda Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, Nazirlər Kabineti Təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri Qulu İmanquliyev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, general-mayor Həzi Aslanov, Xarici İşlər, Maliyyə, Mədəniyyət, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, İqtisadiyyat nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Dövlət Miqrasiya xidmətlərinin, Azərbaycan Hava Yolları QSC-nin və ABŞ Ədliyyə Nazirliyinin nümayəndələri iştirak ediblər.




**19 dekabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ABŞ-ın Ədliyyə Nazirliyi nəzdində Narkotiklərlə Mübarizə üzrə Administrasiyanın Orta Asiya üzrə regional direktoru Vilyam Varenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

**20 dekabr tarixində** "Hyatt Regency Baku" otelində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi çərçivəsində növbəti təlim keçirilib.

**20 dekabr tarixində** Dövlət Gömrük Komitəsində "Gömrük sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə 6-cı beynəlxalq elmi praktiki konfrans" keçirilib. Konfransda Dövlət Gömrük Komitəsinin Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsinin rəisi Təmkin Xəlilov, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəis müavini Ramiz Hümbətov, Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyev, aidiyyəti qurumların nümayəndələri, Rusiya Gömrük Akademiyasının prorektoru, Rostov filialının direktoru Pyotr Başlı, Rusiya Federal Gömrük Xidmətinin İnformasiya Texnologiyaları Baş İdarəsinin rəis müavini Ruslan Najimov, Özbəkistan Respublikası Gömrük Komitəsinin İnformasiya-Kommunikasiya Texnologiyaları idarəsinin rəisi Doniyor Maksumov, Qazaxıstanın Azərbaycandakı səfirliyinin məsləhətçisi Aydın İmaşov, Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbə və müdavimləri iştirak ediblər.

**21 dekabr tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və

səlahiyyətli səfiri Erkan Özoralı qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

